# Qəmbər Məhərrəmov

## Unuda bilmirəm

Həsrəti yaşamaq gəlməsin asan,
Hərdən yox, hər saat xəyalımdasan.
Mənim görüşümdə tapınmalısan,
Nə qədər sıxsa da qəm səni, gülüm,
Unuda bilmirəm mən səni, gülüm!

Ya mən tez olaydım, ya sən bir az gec,
Qəmlər üstümüzdə salmayaydı öc,
Axır fələk gəldi bəxt yazana güc,
Eylədi taleyi kəm səni, gülüm,
Unuda bilmirəm mən səni, gülüm!

Bu istəyi bizə niyə bildirir?
Şirin danışdırıb acı güldürür,
Nakam məhəbbətlə içdən öldürür
Bu fələk həm məni, həm səni gülüm,
Unuda bilmirəm mən səni, gülüm!

Vali Qəmbər istər çəkə nazını,
Dəyişdirə bəxtindəki yazını,
Xoş keçirə ömrün qalan azını
Görməyə gözləri nəm səni, gülüm,
Unuda bilmirəm mən səni, gülüm!

## Odlanasan

Mənim ilə söhbətində şən idin,
Bu könlümün tək həmdəmi sən idin,
Xəyalımda mələklərə tən idin,
Sən ki, mənim saf eşqimi duymadın,
Odlanasan, odlanasan, ay gözəl!

Tək qəlbimin harayıydın, hayıydın,
Yollarımın günəşiydin, ayıydın.
Qış ömrümün baharıydın, yayıydın,
Sən ki, mənə zərrə eşqi qıymadın,
Odlanasan, odlanasan, ay gözəl!

Çaylar kimi hey kükrəyib daşardım,
Eşqin ilə dilə gəlib coşardım,
Gündə sənə neçə şeir qoşardım,
Telli sazam, sinən üstə qoymadın,
Odlanasan, odlanasan, ay gözəl!

Qəlbim dinən kamanıydı, tarıydı,
Elə bil ki, Tanrı mənə yarıydı,
Sənə sonsuz məhəbbətim varıydı,
Sən ki, onu saf məhəbbət saymadın,
Odlanasan, odlanasan, ay gözəl!

Hər an səni düşünürdüm, anırdım,
Səni dönməz məhəbbətim sanırdım,
Bu eşq ilə Kərəm kimi yanırdım,
Sən Qəmbəri odlamaqdan doymadın,
Odlanasan, odlanasan, ay gözəl!

*Beyləqan*